# Milli Məclisin Sədri Sahibə Qafarova Londonda Kral III Çarlzın tacqoyma mərasimində iştirak edib







**Mayın 6-da Böyük Britaniya və Şimali İrlandiya Kralı III Çarlzın tacqoyma mərasimi keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Londonun Vestminster abbatlığında baş tutan mərasimdə Azərbaycanı Milli Məclisin Sədri Sahibə Qafarova təmsil edib. Qeyd edək ki, mərasimdə bir çox dövlət və hökumət başçıları da daxil olmaqla, iki mindən çox qonaq iştirak edib.

*"Azərbaycan"*

Azərbaycan.- 2023.-7 may.- S.4.